# MasterCem® GA 1130

**Sementin yekun möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq, eləcə də sement dəyirmanının istehsal qabiliyyətini artırmaq məqsədilə hazırlanmış xloridsiz sement qatqısı.**

## MATERİALIN TƏQDİMATI

**MasterCem® GA 1130** - üyütmə asanlaşdırıcı qrupuna daxildir. Üyüdülmə prosesində üyüdücü vasitə və sement ötürülməsi zamanı axına yardımçı vasitə qismində çıxış etməsinə əlavə olaraq, **MasterCem® GA 1130** özünün kimyəvi komponentlərinin fəaliyyəti sayəsində spesifik sement xüsusiyyətlərini yaxşılaşdırır.

Qatqısız vəziyyətə görə tipik üyütmə effektivliyinin artımı 10-25% aralığında olmuşdur. Bununla yanaşı, məhsulun iş qabiliyyəti üyütmə avadanlığının xüsusiyyətlərindən, iş prosesi şəraitindən, xammalın xüsusiyyətlərindən və sementin növündən asılıdır. Sement qatqısından ən yaxşı faydanı əldə etmək üçün üyütmə və ayırma prosesləri parametrlərinin uyğunlaşdırılması zəruri ola bilər.

**MasterCem® GA 1130** daşınma xətti içərisindəki sementin axış yönünü müəyyənləşdirir və sementin ötürülmə qabiliyyətinə və saxlama zamanı bərkimənin azalmasına müsbət təsir göstərir. Sement qatqılarından ən yaxşı nəticəni almaq üçün, dəyirman və separator proses parametrlərinin optimizə edilməsinə ehtiyac duyula bilər. Sement qatqıları dəyirman ve daşınma xətti içərisindəki sementin axış yönünü müəyyənləşdirir. Bu xüsusiyyətə "pack set" deyilir.

## STANDARTLAR

**MasterCem® GA 1130**, Avropa sement standartının (EN 197.1) tələblərinə cavab verir.

## TƏTBİQ SAHƏLƏRİ

**MasterCem® GA 1130**, aşağıda qeyd olunmuş qurğulardakı sement üyütmə prosesində tətbiq olunmaq üçün hazırlanır :

- Sement dəyirmanlarda;
- Dik dəyirmanlarda;
- Digər sement üyütmə sistemlərində.

## ÜSTÜNLÜKLƏRİ

**MasterCem® GA 1130**, sement istehsalçıları üçün aşağıdakı üstünlükləri təklif edir:

- **Xərclərin azalması:** qurğunun daha aşağı üyütmə enerjisi (kVts/t), eləcə də sement xüsusiyyətlərini saxlamaqla sementin narınlığının və strukturunun optimallaşdırılması sayəsində.
- **Məhsul çeşidi:** yekun tətbiq üzrə sementin təkmilləşdirilmiş iş qabiiliyyəti və inkişaf etdirilmiş xüsusiyyətləri sayəsində.
- **Sement daşınmasının təkmilləşdirilməsi:** zavod və paylayıcı logistika müəssisələri vasitəsilə daha sürətli sement daşınması sayəsində. Zavodda dayanmaların azalması və siloslarda optimal saxlanma. Tətbiq zamanı çox az tozun əmələ gəlməsi və bu səbəbdən münasib iş mühiti.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP

# MasterCem® GA 1130

**Sementin yekun möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq, eləcə də sement dəyirmanının istehsal qabiliyyətini artırmaq məqsədilə hazırlanmış xlo-ridsiz sement qatqısı.**

## TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Rəngi | Qəhvəyi |
| Sıxlığı | 1,168-1,228 kq/litr |
| pH | 5.5-8.5 |

*Qeyd olunmuş gostəricilər +20° C və 50% nisbi rü-tubət muhitində qəbul olunmuşdur.*

## SƏRFİYYAT

**MasterCem® GA 1130** doza ilə ölçülə və ya birbaşa dəyirmana vurula bilər. Tövsiyə olunan doza nisbəti, 1 ton sement üçün 200 və 600 qram aralığındadır (kütlənin 0.02 %-0.06%-i). Xüsusi hallarda, digər doza nisbətləri tələb oluna bilər. Optimal doza zavod sınaqlarında müəyyən olunmalıdır. Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

Məhsulun maksimum performansını əldə etmək üçün, tənzimlənən bir axış nisbəti və müvafiq doza diapazonu kalibrasiya edilmiş dozajlama avadanlığı məsləhətdir.

## UYĞUNLAŞMA

**MasterCem® GA 1130**, bütün sement növləri ilə uyğunlaşır.

## QABLAŞDIRMA

1000 kq-lıq böyük çən.
Tökmə.

## SAXLAMA

**MasterCem® GA 1130** məhsulunun 5°C-dən yüksək temperaturlarda saxlanması tövsiyə olunur. Borular istiliyə qarşı izolyasiya olun-malıdır. İstehsalçının təlimatlarına əsasən əgər məhsul açıq olmayan konteynerlərdə saxlanar-sa, bu halda saxlama müddəti minimum 12 aydır.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP